İntiqam Mehdizadə

# YERALTI KEÇİDDƏ TƏLƏSMƏYİN...

## çünki, o iyirmi-iyirmi beş addımda kitabçı Hilal sizə öz musiqimizi dadızdıracaq...

Axır vaxtlar uzaqlardan gözümə sataşan sozalmış bir işığınmı, ya yaşımdan gələn maraq üzündən üstündə gəzdiyim torpağın, asfalt küçələrin, səkilərin alt qatlarından xəbər tutmağa meylim artıb. Ən çox da metro qatarlarının şütüdüyü qaranlıq dərinliklərə, şəhərimizdə insanların rahatlığına hesablanmış yeraltı keçidlərə. Və qəribədir ki, o qələbəliyi görmək, hətta o qüssəni dadmaq üçün fürsət düşən təki yolumu o yeraltı keçidlərdən salıram. Ən çox da Bakımızın mərkəzi olan İçəri şəhərin qala divarlarına bitişik metronun qənşərindəki yeraltı keçiddən. O keçidlə metronun girəcəyi arasındakı meydan binayı-qədimdən insanların görüş üçün vədələşdiyi doğma bir məkan olub. Bakı soveti binasının qülləsindəki saatsa bu yerin ən vacib atributu kimi az qala adamların yuxularına girib, onları sərvaxt olmağa səsləyib.

...Yaxın bir dostumla metro qapısının açıldığı meydanda görüş təyin eləmişik. Bu da yeraltı keçidin İstiqlaliyyət küçəsinə açılan ağzı. Aşağı endikcə pillələri sayıram. Bu



nədir, hardan gəlir bu çal-çağır sədaları, bu ansambl hardadır, oxuyan harda dayanıb görən? Biri-birinin dabanını basan ecazkar milli musiqilərimizi dinləməyə cəmi-cümlətanı bir-neçə saniyə vaxtı olan, becid addımlarla yeraltı keçiddən adlayıb o tay bu taydakı səkilərə çıxan insanlara bu ani zövqü ərməğan eləyən kimdir görən? Axı paytaxtın bir çox yeraltı keçidlərində bu ovqata rast gəlməzsən. Hər tərəfdən zərif, ahəstə axınla məni bürüyən musiqi sədalarını dinləyə-dinləyə "yerin üzünə" çıxıram. Nədənsə yenə qayıdıb pillələri enirəm, o bir-neçə addımlıq yerdə vargəl edirəm. Musiqilər biri-birini əvəzləyir. Səslər tavandakı xüsusi qurğulardan süzülüb gəlir. Bəs bunun kökü hara bağlıdır, kimdən soruşum görən? Keçidin bir küncündə balaca masanın üzərinə beş-on kitab qoyub satan kişidən savayı gözümə heç nə dəymir. Arada arxasındakı dəmir qapını açır, ordakı balaca kitab ambarındakı "studiyasında" qurcalanır. Düz tapmışam, deməli bütün bunlar onun əməlidir. Kitabsevərləri cəlb etmək üçün özüylə evindən gətirdiyi köhnə dəbli maqnitafona "xod" verir ki, bəlkə musiqinin gücünə kimlərisə yolundan eləyə, kitab aldıra. Bunları ona verdiyim ilk sualımın cavabından öyrənirəm. Bəs onda niyə yalnız milli musiqilər? Deyir, axı, indiki gəncliyin zövqü, istəyi bir xeyli "irəliləyib", Avropa, Amerika, pop, caz, rep, filan-peşməkan... İndi Rübabəni, Yaqubu, Xanı, Zülfünü, Aşıq Şakiri, Söyün Saraclını qapı dalında saxlayanların sayı artmaqdadır. Bax, onların acığına bu texniki qurğuları düzüb-qoşmuşam. Çox sağ olsunlar ki, hələlik dəyib-dolaşan yoxdur.

Birdən gözüm gözlərinə sataşır. Və nə üçünsə "Şərikli çörək" filmindəki aktyor Fazil

Salayevin gözlərinə bənzədirəm onları və özlüyümdə elə Fazil kişi adı verdiyim o kitab satan kişidən əsil adını soruşuram. "Hilaldır" deyir. Deyirəm ay Hilal, hardandı səndə musiqimizə olan bu məhəbbət, həvəs, üstəlik də bu inad? Bahasına bir şey verirlərmi barı? Qannan gəlmədi, - deyir, - dədə-babadan belə görmüşəm. Əslən şamaxılıyıq, amma mən Bakıda doğulmuşam. Şamaxılılar da bilirsiz də binayi-qədimdən musiqidən yana sinov gedillər. Atam jurnalist olub, eşitmiş olarsız, Ramiz Bağıyev. "Kommunist", "Azərbaycan pioneri" qəzetlərində, "Pioner", "Kirpi" jurnallarında işləyib. Jurnalistliyi bir yanaydı, melomanlığı bir yana. Kalan musiqiçi dostları vardı. Yığışardılar bizə, çalıb-oxuyar, həm də dünya işlərindən gap elərdilər. Bir sözlə, əsil universitet. Mən də ki, bu məclislərin biletsiz tamaşaçısı. Bəlkə də onçun oxuyub bir qırağa çıxmadım. Axırım da oldu kitabsatan. Bəlkə də atam bizləri tərk etməsəydi... (kövrəlir). Amma yox, özüm seçmişəm bu peşəni. Jurnalistlər demiş, qəlbimin hökmüylə. Düz 36 ildir kitab satmaqla gün keçirirəm. Bəzən məndə elə kitaba rast gələrsiz ki, onu şəhərin heç bir yerində görəmməzsiz. Özüm axtarıb tapıram onları. Bəzən qapı-qapı düşüb gəzirəm, bəzən kimlərinsə gərəksiz bilib tulladıqlarını ərinməyib küçələrdən, səkilərdən götürüb urvata salıram. Özüm də o qədər kitab oxumuşam, danışanda elə bilirlər iki ali məktəb bitirmişəm. İnanın mənə, o qədər bu işin aludəsiyəm ki, bir də görürəm kimsə keçiddə ayaq saxlayıb musiqilərimə qulaq asır, onda vəcdə gəlirəm. İçəri çağırıram, ürəyimdən keçən hansısa bir kitabı hədiyyə verirəm ona. Necə deyəllər, mayama ziyan olsa da. Oğlum Babək də mənim yolumu gedir, o da yeraltı keçiddə işləyir, kitab satır. Musiqi də ki, öz yerində. İnanmırsız, yolunuzu ordan salın - Daxili İşlər Nazirliyi ilə Mərkəzi univermaq arasındakı yeraltı keçiddən. Eyzən burdakı kimi orda da Azərbaycan musiqisindən savayı heç nə eşitməzsiz. Bizim musiqidən, ondakı melodiyadan dünyada yoxdur. Ən çox da Üzeyir bəydən üzü bəri bəstəkarlarımızdan. Cahangirlə, Tofiq Quliyevlə, Hacı Xanməmmədovla, Səid Rüstəmov, Ramiz Mirişli, Oqtay Kazımi ilə kim ayaqlaşa bilər? Rübabənin, Şövkətin, Zeynəbin, Saranın, Nərminənin, Floranın, Elmiranın yerini kim verər? Adamı göyün yeddinci qatına qaldırır, düzü-dünyanı göstərir, gətirib qoyurlar öz yerinə-yurduna, Azərbaycana...

Lap uşaqlıqdan kitab ölüsü olmuşam. İstəyirəm gənclərimiz, lap elə ahıl-ağsaqqallarımız da dünyanı ağzına almış internetə, kompyuterə uyub kitabı qəribçiliyə salmasınlar. Kitab verəni dünyada heç nə verməz...

...İndi hər ikimiz - Hilal da, mən də "Şərikli çörək"dəki Fazil Salayevik. Və mahnını dinləyə-dinləyə gözləri yol çəkən bu kişiyə bir xeyrim dəysin deyə ondan Pol Breqqin "Ac qalma möcüzəsi" kitabını alıram, sonra başımda min dürlü xəyallar, qulağımda ecazkar musiqimizlə pillələri qalxır, "yer üzünə" çıxıram. Bakı soveti metrosunun qənşərində, görüşçün vədələşdiyimiz yerdə dostum haçandı gözləyir. Səndən nə əcəb, deyir, - 15 dəqiqədir gecikirsən. Deyirəm bəs hal-qəziyyə belə. Ona da maraq güc gəlir, qol-qola girib pillələri enirik. Musiqi, musiqi, musiqi.... Dostum da bir kitab alır. Hilal kişinin eyni bir az da açılır. Zarafat deyil, 10-15 dəqiqənin içində iki kitab satıb. İçəri keçib maqnitafonunun səsini qaldırır və "Kəsmə şikəstə"nin müşayiətilə yeraltı keçiddən Yerin üzünə çıxırıq...

Bilmirəm yeraltı keçidlərə bu get-gəllərim nə zamanacan sürəcək. Bəlkə qədim Yasamal qəbristanında uyuyan, Baksovetdəki yeraltı keçidlə demək olar ki, tən olan ilk və son eşqimin yadigarının yanına gedənəcən, ya bəlkə Hilal qardaşımın təəsübünü çəkdiyi və daima çəkəcəyi o həzin musiqilərimizin də lapdan qırılacağı məqamacan... Bilmirəm. Amma bircə onu arzulayıram ki, bizlərdən sonra da Hilal kişinin hansısa bir duyğunun təsiriylə tərtib elədiyi o doğma, o möhtəşəm repertuar sönüb-səngiməsin, yeraltı keçiddən o tərəf bu tərəfə axışan el-camaatımızı ən ülvi hislərə bələnmiş olsun... ◆

